2018-ci ilin yanvar-may aylarında ev təsərrüfatlarında sənaye məhsulu istehsalı, habelə hüquqi şəxs yaratmadan fiziki şəxs kimi sənaye sahəsində fəaliyyət göstərənlərin işi də nəzərə alınmaqla 431456 min manatlıq sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,6 faiz çoxdur. Sənaye istehsalının 96,1 faizi malların, 3,9 faizi isə xidmətlərin payına düşmüşdür.

Sənayenin dövlət sektorunda 19245,3 min manatlıq, qeyri-dövlət sektorunda 412210,7 min manatlıq məhsul istehsal edilmişdir.

2018-ci ilin yanvar-aprel aylarında muxtar respublikanın sənaye müəssisələrində 16429 nəfər işçi çalışmışdır ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,7 faiz çoxdur. Sənaye sahəsində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,5 faiz artaraq 378,2 manat olmuşdur.